# Avropa İttifaqı və Avropa Şurasının **«Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq»** proqramı

**Ədalət mühakiməsinin gücləndirilməsi**
**İqtisadi cinayətlərə qarşı mübarizə**
**Bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin təşviqi**
**Qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə**

Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir

Avropa İttifaqı və Avropa Şurası daha güclü idarəetmə, qanunun aliliyi və vətəndaşların həyatının yaxşılaşdırılması üçün Şərq Tərəfdaşlığı ölkələri* ilə birlikdə işləyir. 2014-cü ildə onlar Şərq Tərəfdaşlığı ölkələri üçün "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" proqramı adlı ümumi təşəbbüsə başlayıblar. Proqram, Avropa standartlarına uyğun olaraq, ədalət mühakiməsinin gücləndirilməsi, iqtisadi cinayətlərə qarşı mübarizə, bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin təşviqi, qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə üçün ölkələrin daxili islahatlarının həyata keçirilməsinə dəstək verir. O, Avropa İttifaqı və milli maraqlı tərəflərlə sıx məsləhətləşmələr əsasında, Avropa Şurasının ölkələr üzrə xüsusi Fəaliyyət Planlarına və Avropa İttifaqının Şərq Tərəfdaşlığı regionu üçün prioritetlərinə uyğun olaraq tərtib edilib. Proqramın 2023-cü ildən 2027-ci ilə qədər davam edəcək hazırkı mərhələsi əvvəlki mərhələlərdə - 2015-2018 və 2019-2022-ci illərdə əldə edilmiş nəticələrə və irəliləyişlərə əsaslanır. Gürcüstan, Moldova Respublikası və Ukraynanın Aİ-yə üzvlük prioritetlərinin həyata keçirilməsində əldə etdiyi irəliləyişlər diqqət mərkəzindədir. "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" proqramı çərçivəsində Ermənistan və Azərbaycana dəstək davam etdiriləcək. Lazım olduğu halda Belarusun demokratik qüvvələri və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq fəaliyyətləri təşkil edilə bilər.

## ƏVVƏLKİ MƏRHƏLƏDƏ ƏLDƏ EDİLMİŞ ƏSAS NAİLİYYƏTLƏRƏ AŞAĞIDAKILAR DAXİLDİR:

- Əsas məhkəmə islahatlarının hərtərəfli şəkildə həyata keçirilməsi və məhkəmə sisteminin müstəqilliyinin, effektivliyinin və səmərəliliyinin gücləndirilməsi.
- Qanunvericiliyin Avropa İnsan Hüquqları Konvensiyasına uyğunlaşdırılmasının gücləndirilməsi və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrasının yaxşılaşdırılması.
- Xüsusilə qadınlar, uşaqlar və ən həssas qruplar üçün ədalət mühakiməsinə çıxış imkanlarının yaxşılaşdırılması.
- Vətəndaşların daha yaxşı hüquqi müdafiəsini təmin etmək üçün vəkil assosiasiyaları arasında əməkdaşlığın gücləndirilməsi, onların fəaliyyətinin yaxşılaşdırılması və müstəqilliyinin artırılması.

Siyasətlərin, təsisatların və təcrübələrin Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna, Venesiya Komissiyasının rəylərinə və Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) standartlarına uyğunlaşdırılması.

* Baxmayaraq ki, "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" proqramı Avropa İttifaqı Şurasının oktyabr 2020-ci il tarixli qənaətlərində təsbit olunmuş Belarus dövlət orqanları və dövlət müəssisələri ilə əlaqə qurmamaq Aİ siyasətinə uyğun olaraq Belarus hakimiyyət orqanlarının iştirakı ilə fəaliyyətləri əhatə etmir, Avropa İttifaqı Şurasının fevral 2022-ci il tarixli qənaətlərinə və Avropa Şurası ölkələrinin nazirlərinin nümayəndələrinin mart 2022-ci il tarixli qərarına uyğun olaraq Belarusun vətəndaş cəmiyyəti və demokratik subyektlərinin nümayəndələri ilə tədbirlər təşkil edilə bilər.

- ▶ Benefisiar ölkələrdə korrupsiyaya, çirkli pulların yuyulmasına, terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə və aktivlərin qaytarılması sahəsində siyasət və qanunvericiliyin gücləndirilməsi.
- ▶ Korrupsiyaya, çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə və onların qarşısının alınması sahəsində Avropa Şurasının tövsiyələrinin və Avropa standartlarının həyata keçirilməsi üçün korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsindəki xüsusi qurumların institusional potensialının gücləndirilməsi.
- ▶ Korrupsiyaya, çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə və onların qarşısının alınması sahəsində milli səviyyədə çatışmazlıqları və regional problemləri həll etmək üçün regional əməkdaşlığın gücləndirilməsi.

Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) və Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) qiymətləndirmələri nəticəsində aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması.

- ▶ Ayrı-seçkiliyə qarşı siyasətlərin və qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılmasının yaxşılaşdırılması.
- ▶ Benefisiar ölkələrdə bərabərlik orqanlarının və vətəndaş cəmiyyəti təşkilatlarının həssas qruplara mənsub olan şəxslərə hüquqlarının bərpasına yönələn müvafiq mexanizmlər vasitəsilə ayrı-seçkilik barədə şikayətlərinə baxılmasında kömək etmək potensialının artırılması.
- ▶ Benefisiar ölkələrdə ayrı-seçkilik, nifrət nitqi və nifrət zəminində cinayətlər haqqında məlumatların toplanması sistemlərinin təkmilləşdirilməsi.
- ▶ Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyasına (İstanbul Konvensiyası) uyğun olaraq zorakılığın qurbanı olan qız və qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və beləliklə İstanbul Konvensiyasının imzalanmasına/ratifikasiyasına töhfə verilməsi.
- ▶ Ayrı-seçkiliyə qarşı mübarizə aparılmasına və qadınların ədalət mühakiməsinə çıxışının təmin edilməsinə yönələn alətlərin işlənib hazırlanmasında vətəndaş cəmiyyətinin iştirakının genişləndirilməsi və potensialının artırılması.

İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) tövsiyələrinin, eləcə də Milli azlıqlar haqqında Çərçivə Konvensiyasına (FCNM) və Regional və ya azlıqların dilləri haqqında Avropa Xartiyasına (ECRML) riayət edilməsinin monitorinqindən irəli gələn tövsiyələrin həyata keçirilməsi və İstanbul Konvensiyası, Avropa İnsan Hüquqları Konvensiyası daxil olmaqla gender bərabərliyi və qadın hüquqları ilə bağlı Avropa Şurası standartlarının həyata keçirilməsi.

Avropa Komissiyasının iştirakçı ölkələrlə sıx əməkdaşlıq şəraitində qanunvericiliyin təhlilinə dair sorğuları cavablandırmaq üçün benefisiar ölkələrə Venesiya Komissiyasının səlahiyyətlərinə aid sahələrdə, məsələn, aşağıdakı sahələrdə Çevik Cavab Mexanizmi vasitəsilə prioritet islahatlarla əlaqəli qanunvericilik və siyasətlərin hazırlanmasına dair təlimatlar verilmişdir: seçkilər sahəsində qanunvericilik (Ermənistan, Gürcüstan və Moldova Respublikası), konstitusiyaya dəyişikliklər (Ermənistan, Gürcüstan, Moldova Respublikası, Ukrayna), siyasi partiyalar haqqında qanun (Ermənistan), parlamentdə qanunyaratma prosedurlarına konstitusion nəzarət (Moldova Respublikası), eləcə də media sahəsində qanunvericilik ("Audio-vizual media xidmətləri məcəlləsi"nə dəyişiklik – Moldova Respublikası) və kütləvi informasiya vasitələri haqqında qanuna edilən dəyişikliklərin (Ermənistan) Avropa Şurasının Media Departamenti tərəfindən hüquqi ekspertizası.

## PROQRAM HANSI MƏQSƏDLƏRƏ NAİL OLMAĞA YÖNƏLİB?

- Məhkəmə islahatları sahəsində məlumatların toplanması və təhlili mexanizmləri vasitəsilə faktoloji məlumatlara əsaslanan siyasətin hazırlanması işini **yaxılaşdırmaq**.
- Qanunun aliliyi, insan hüquqları, gender bərabərliyi və korrupsiyaya qarşı mübarizə mexanizmlərini **gücləndirmək** və əsas məhkəmə islahatlarının həyata keçirilməsini irəliyə aparmaq.
- Proqram fəaliyyətləri vasitəsilə **vətəndaşların həyatının əhəmiyyətli dərəcədə yaxşılaşmasına töhfə vermək.**

## PROQRAM ÇƏRÇİVƏSİNDƏ BUNLARA NECƏ NAİL OLUNACAQ?

- Şərq Tərəfdaşlığı ölkələrinin milli qanunvericiliyinin və təcrübəsinin Avropa standartlarına uyğunlaşdırılması üçün **hüquqi və siyasi bazaların daha da təkmilləşdirilməsinə və institusional potensialın artırılmasına** yönələn fərdiləşdirilmiş və tələbata əsaslanan dəstək vasitəsilə.
- Bu məqsədlə proqram fəaliyyətlərinə bütün dörd tematik sahədə texniki dəstək və ekspertiza, hüquqi ekspertiza, sektorlar üzrə qiymətləndirmələr, məlumatlılığın artırılması və potensialın inkişaf etdirilməsi daxildir.
- Proqramın **üçüncü mərhələsində əsas diqqət** benefisiar təsisatların dayanıqlılığına və məsuliyyətliliyinə yönəlir.
- **Gender amilini nəzərə alan yanaşma** proqramın əsas elementini təşkil edir və «Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq» fəaliyyətləri çərçivəsində **daha da gücləndirilir.**
- **Regional tədbirlər** ümumi problemlərin öhdəsindən gəlmək, əməkdaşlıq şəbəkələrinin yaradılmasını asanlaşdırmaq və regional əməkdaşlığı gücləndirməkdən ötrü həmkarlar arasında qabaqcıl təcrübələrin mübadiləsi üçün platformanı təmin edir.
- Proqramın ikinci mərhələsi çərçivəsində tətbiq edilmiş bir sıra qabaqcıl təcrübələrin tətbiqi davam etdiriləcək, məsələn, ortaya çıxan ehtiyacların qarşılanmasında və çoxsaylı problemlərin həllinə adaptiv yanaşmada mühüm rol oynayan çeviklik, habelə layihələrə müştərək və çoxtərəfli yanaşmanın təşviqi buraya daxildir.

## DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ TÖHFƏ




”Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” proqramının və onun layihələrinin həyata keçirilməsi vasitəsilə Avropa Şurası Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərini (DİM), xüsusilə 5-ci DİM-i (gender bərabərliyinə nail olmaq, bütün qız və qadınların hüquq və imkanlarını genişləndirmək), 10-cu DİM-i (ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq) və 16-cı DİM-i (dayanıqlı inkişaf naminə dinc və inklüziv cəmiyyətləri təşviq etmək, hamı üçün məhkəmə sisteminin əlçatanlığını təmin etmək və bütün səviyyələrdə effektiv, məsuliyyətli və inklüziv institutlar yaratmaq) dəstəkləməklə BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyinə öz töhfəsini verir.

## “YAXŞI İDARƏÇİLİK ÜÇÜN TƏRƏFDAŞLIQ” PROQRAMINA QISA BAXIŞ

Şərq Tərəfdaşlığı ölkələrində proqram çərçivəsində ölkələr üzrə 17 layihə və dörd regional layihə həyata keçirilir.

“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” proqramının əhatə etdiyi mövzulara aşağıdakılar daxildir:

- ədalət mühakiməsinin gücləndirilməsi
- iqtisadi cinayətlərə qarşı mübarizə
- bərabərliyin və ayrı-seçkiliyə yol verilməməsinin təşviqi
- qadınların ədalət mühakiməsinə çıxış imkanlarının artırılması və qadınlara qarşı zorakılıq əleyhinə mübarizə

Proqrama ayrılan büdcə 19,3 milyon avro təşkil edir.
(15 milyon avro Avropa İttifaqı və 4,3 milyon avro Avropa Şurası tərəfindən təqdim edilir).

“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” proqramı ikişaxəli yanaşmadan ibarətdir:

- **Texniki yardım** – benefisiar ölkələrin Avropa standartlarına uyğunluğunun artırılmasına dəstək üçün onlara bu yardım göstərilir. Milli tədbirlər nəticə üçün faydalı hesab edildikdə, regional layihələrə (bütün benefisiar ölkələri əhatə edən layihələrə) və ya çoxölkəli layihələrə (bəzi benefisiar ölkələri əhatə edən layihələrə) daxil edilir.
- **Çevik Cavab Mexanizmi** – bu elə bir alətdir ki, onun vasitəsilə Avropa Şurası benefisiar ölkələrin sorğularına cavab olaraq xüsusi qanunvericilik ekspertizası və siyasətə dair məsləhətlər təqdim edir. Bu sorğular proqramın dörd tematik sahəsindən birinə aid ola bilər, lakin həm də Venesiya Komissiyasının mandatına aid olan digər məsələləri və Avropa Şurasının digər orqanlarının səlahiyyətinə aid sahələri əhatə edə bilər.











“Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq” 2023-cü ildən 2027-ci ilədək həyata keçirilməsi nəzərdə tutulan, Şərq Tərəfdaşlığı ölkələrinin fərdi ehtiyaclarına uyğun olaraq milli qanunvericiliyin və təcrübənin Avropa standartlarına uyğunlaşdırılması ilə əlaqədar təşkil edilən regional proqramdır.

Proqram Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynadakı layihələri əhatə edir. Benefisiar ölkələrə Avropa İttifaqı və Avropa Şurasının 2014-cü ildə imzalanmış Niyyət Bəyannaməsində müəyyən edilmiş strateji məqsədlərə uyğun olaraq daxili islahatların həyata keçirilməsi üçün texniki əməkdaşlıq vasitəsilə dəstək göstərilir.

## ƏLAVƏ MƏLUMAT

«Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq» Proqramının Koordinasiya qrupu
Proqram Koordinasiyası Direktorluğu
Avropa Şurası
Avropa prospekti, F-67075 Strasburq Cedex, Fransa

**E-mail: dpc_pgg@coe.int**
**Veb-sayt: http://partnership-governance-eu.coe.int/**

PREMS 001025 – Photos: Shutterstock

AZE

Avropa İttifaqına üzv dövlətlər öz təcrübələrini, resurslarını və müqəddəratlarını bir-biri iə bağlamaq qərarına gəlmişlər. Onlar birlikdə, mədəniyyət müxtəlifliyini, tolerantlığı və fərdi azadlıqları qorumaqla sabitlik, demokratiya və dayanıqlı inkişaf zonası yaratmışlar. Avropa İttifaqı öz nailiyyətlərini və dəyərlərini öz hüdudlarından kənarda olan ölkələr və xalqlarla bölüşmək əqidəsinə sadiqdir.

**www.europa.eu**

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqi tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE
CONSEIL DE L’EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir